AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

GÜLŞƏN AĞABABA qızı SƏMƏDOVA

# ÖYRƏNƏNLƏRİN LİNQVİSTİK VƏ İNTERAKTİV SƏRİŞTƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ƏSASINDA XARİCİ DİL MÜƏLLİMLƏRİNİN PEŞƏ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(ingilis dilinin tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2018

İş Azərbaycan Dillər Universitetinin Linqvodidaktika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqogika üzrə elmlər doktoru, professor
Dilarə Əbdül qızı İsmayılova

Rəsmi opponentlər: Pedaqogika üzrə elmlər doktoru, professor
Akif Nurağa oğlu Abbasov

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Minəvvər Firudin qızı Məmmədova

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin
İngilis dili və onun tədrisi metodikası kafedrası

Müdafiə ________________ 2018-ci ildə saat ______da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat _________________________2018-ci ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
Filologiya üzrə elmlər doktoru, dosent Həmidə Əhməd qızı Əliyeva

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Azərbaycanda ictimai həyatın bütün sahələrində iqtisadi və sosial dəyişikliklərin artdığı müasir dönəmdə peşəkar ali təhsilin yeni keyfiyyəti daha aktual məna daşıyır.

Elmi ədəbiyyatın analizi və orta məktəbin yuxarı siniflərində, universitetlərin aşağı kurslarında xarici dilin tədrisi və həmçinin gənc müəllimlərlə aparılan treninqlər sahəsindəki praktik təcrübə göstərir ki, ənənəvi tədris proqramları xarici dildə kommunikativ kompetensiyaların formalaşdırılmasına və öyrənmənin nəticələrinin qiymətləndirilmə kriteriyalarının hazırlanmasına deyil, əsasən dilin tədrisinə diqqət ayırır. Xarici dil müəlliminin təhsilin keyfiyyətinə nəzarəti həyata keçirə bilməsi, ali təhsildə xarici dil tədrisinin keyfiyyətini idarə etmək üçün zəruri sətiştələrə malik olması vacibdir. Müasir metodika elmində xarici dil öyrənənlərin linqvistik və interaktiv kompetensiyalarının formalaşdırılması məsələləri kifayət qədər öyrənilmişdır. Lakin dil öyrənənlərin şifahi nitq qabiliyyətlərinə nəzarəti həyata keçirmək üçün müəllimlərdə lazımi kompetensiyaların formalaşdırılması məsələsi hələ xüsusi tədqiqat mövzusu olmamışdır. Beləliklə, “Öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının artırılması yolları” adlı dissertasiya işinin mövzusunun aktuallığı bir tərəfdən müasir cəmiyyətin dil öyrənənlərin şifahi nitq qabiliyyətlərinin keyfiyyətinə nəzarəti həyata keçırə bilmək üçün lazımi kompetensiyalara yiyələnmiş müəllimlərə ehtiyacı ilə, digər tərəfdən isə bu sahənin kifayət qədər elmi və metodiki baxımdan öyrənilməsinə olan ehtiyacla müəyyən olunur.

*Tədqiqatın obyekti* xarici dil müəllimlərinin peşəkarlıq səviyyəsinin artırılması prosesidir.

*Tədqiqatın predmeti* xarici dil müəllimlərinin peşə bacarıqlarının öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi sahəsində formalaşdırılması metodikasıdır.

*Tədqiqatın məqsəd və vəzifələri.* Tədqiqatın məqsədi dil öyrənənlərin xarici dildə linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının inkişaf etdirilməsinin təcrübi metodikasının və nəzəri əsaslarının işlənib hazırlanmasıdır. Tədqiqatın vəzifələri aşağıdakı kimi müəyyənləşmişdir: 1.Xarici dil müəlliminin səriştələrinin məzmun və strukturunun öyrənilməsi nəticələrinin qiymətləndirilməsi keyfiyyətinin müasir innovasiyalar

baxımından analizi: pedaqoji və linqvodidaktik aspektlər; 2. Orta məktəblərin yuxarı siniflərində və universitetlərin aşağı kurslarında dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin obyektiv şəkildə qiymətləndirilməsinin obyektivliyinin təmin edilməsi probleminin müəyyən edilməsi; 3. Dil öyrənənlərin xarici dildə linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının müəyyən edilməsi; 4. Dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının inkişafının metodiki modelinin işlənib hazılanması.

*Tədqiqat işinin fərziyyəsi.* Dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının inkişafı o zaman daha effektiv olar ki, bu prosesin məqsəd və vəzifələri xarici dil müəlliminin peşə bacarıqlarının məzmunu, strukturu, kriteriyaları əsasında müəyyən olunsun.

*Mövzunun işlənmə dərəcəsi.* Qeyd etmək lazımdır ki, dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin obyektiv şəkildə qiymətləndirilməsinin təmin edilməsi sahəsində xarici dil müəlliminin bilik, bacarıq və vərdişlərininin (kompetentliyinin) formalaşdırılması məsələləri ilə bağlı müəyyən elmi baza artıq formalaşmışdır. Bəzi nəzəri və təcrübii işlərin analizi göstərdi ki, alimlərin diqqət mərkəzində aşağıdakı məsələlər olmuşdur:

- Təhsildə səlahiyyətli yanaşmanın nəzəri əsasları[1]
- Xarici dil öyrətməyin linqvodidaktik əsasları[2]

---

[1] Barsuk R.Y.Основы обучения иностранному языку в условиях двуязычия, М.: Высшая школа,1970, 176 с.; Hüseynzadə G.C. Xarici dillərin tədrisində islahatların tətbiqi: Müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid / ”Elm”ilinə həsr olunmuş Xarici dillərin aktual problemləri. II Respublika konfransının materialları. Bakı: ADU, 2009.220-226s.; Zimnyaya İ.A. Психология обучения иностранным языкам в школе. М.:Просвещение,1991, 221с. və b.

[2] Məmmədov A.Y.Nitqə yiyələnmədə situasiyanın rolu // ADU-nun elmi xəbərləri, 2006, №.1, s. 217-224; Османзаде А.О. Межкультурная коммуникация как методологическая основа подготовки профессиональных переводчиков / Перевод и транснациональные процессы. Тезисы международой конференции .Баку, 2005, с. 167-168; Мильруд Р.П. Языковой тест : проблемы педагогических измерений / Р.П. Мильруд, А.В. Матиенко // Иностранные языки в школе, 2006, №5.-с.7-13. və b.

- Dil öyrənənlərin xarici dildə kommunikativ səriştələrinin formalaşma səviyyəsinin yoxlanmasının fundamental əsasları[1]
- Tələbələrin nitq qabiliyyətlərinin qiymətləndirilməsi metodları[2]

*Tədqiqatın elmi yeniliyi* ondadır ki, bu tədqiqatda "Dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi sahəsində xarici dil müəllimlərinin peşə bacarıqları" məfhumu dəqiqləşdirilmişdir ki, bu da bacarıqların əsasını özündə motivasiya yaradan, koqnitiv, kommunikativ, təşkiledici, diaqnostik və kreativ səriştələri birləşdirən sistemli şəxsiyyətyönümlü təhsil təşkil edir ki, bu isə öz novbəsində müəllimin dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsini effektiv həyata keçirməsini təmin edir. Həmçinin, dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının məzmun xarakteristikaları, onların struktur komponentləri, bu bacarıqların formalaşma səviyyələri və kriteriyaları müəyyən edilmiş və əsaslandırılmışdır.

*Tədqiqatda aşağıdakı metodlardan* istifadə edilmişdir: empirik (mövzu üzrə pedaqoji, psixoloji, fəlsəfi, sosioloji, kulturoloji ədəbiyyatın öyrənilməsi, anket sorğularının keçirilməsi, müşahidələrin aparılması), nəzəri (nəzəri analiz və sintez, abstraktdan konkretə yüksəlmə, modelləşdirmə) məlumat bazasının toplanması və toplanmış məlumatın statistik və riyazi təhlili.

*Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti.* Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, dil öyrənənlərin şifahi nitq səriştəliliyinin qiymətləndirilməsi sahəsində xarici dil müəllimlərinin səriştələrinin simbiozunu təşkil edən kompetensiyaların tərkibi dəqiqləşdirilmiş, onların

---

[1]Qaziyeva M.Y. Xarici dilin tədrisində nitq ünsiyyəti üçün vacib olan psixoloji xüsusiyyətlər / Mədəniyyətlərarası dialoq:linqvistik, pedaqoji və ədəbi aspektlər. Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2010, s. 191-195; Исмайлова Д.А. Общетеоретические аспекты культуроведческого общения иноязычной коммуникативной практики учащихся // Иностранные языки в Азербайджане, 2007, № 1.c. 55-64. Braun H.D.Language assessment : Principles and classroom practice, N.Y.:Longman, 2004, 324 pp. və b.

[2]Alderson J. C. This test is unfair: I'm not an Economist /J.C. Alderson, A.H. Urquhart / In Hauptman.,LeBlanc, R. and Wesche, M., (Eds.) Second Language Performance Testing. Ottawa:University of Ottawa Press, 1985.; Douglas D. Principles for Language Tests within the Discource Domains/D.Douglas, Selinker // Theory of Inter Language:Research, Test Consruction and Interpretation.Testing, v.2 n.2,1985, .pp.205-206

struktur və məzmun xarakteristikaları, kriteriya və formalaşma səviyyələri müəyyən edilmişdir. Bu isə öz növbəsində bu kompetensiyaların tərkibi haqda elmi təsəvvürləri genişləndirir və keyfiyyətin qiymətləndirilməsi kriteriyalarının hazırlanması üçün elmi əsaslar yaradır.Tədqiqatın təcrübi əhəmiyyəti ondan ibarətdir ki, dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə kompetensiyalarını artırmaq üçün hazırlanmış metodik vəsait gələcəkdə xarici dil müəllimlərinin daha mükəmməl peşəkar hazırlığı üçün təminat yaradır.

*Mudafiəyə çıxarılan əsas müddəalar:*

- Dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının komponent tərkibi öz strukturu etibarilə bir sıra kompetensiyalardan ibarətdir ki, onlardan da ən əsas olanları motivasiyayaradıcı, koqnitiv, kommunikativ, layihələndirici, təşkiledici, diaqnostik və kreativ kompetensiyalardır.
- Diaqnostik kompetensiya dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsini həyata keçirmək bacarıqlarının inkişafına istiqamətlənmişdir. Linqvistik və interaktiv səriştəlilik terminin məzmununun analizinə əsaslandıqda, bunların qiymətləndirilməsi obyekti kimi dil öyrənənlərin müəyyən kommuniktiv məsələləri həll etmək məqsədilə şifahi nitq qarşıdurmasında iştirak etmək, həmçinin düzgün nitq üslubu seçmək, şifahi nitq formasını ünsiyyət məqsədlərinə uyğunlaşdırmaq, ən effektiv dil və qeyri-dil vasitələrindən istifadə etmək bacarığının cıxış etdiyini görürük.
- Dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının inkişaf etdirilməsinin metodiki modeli müəyyən tamlıq təşkil edən, özündə məqsəd, vəzifə, yanaşmalar, prinsiplər, öyrətmənin məzmun, texnologiyalar, metodlar, forma və vasitələri, təşkilati-metodiki şərtlər kompleksi və gözlənilən nəticələrin daxil olduğu, qanunauyğun, funksional bağlılığı olan elementlərin birləşməsindən ibarətdir.
- Dil öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının inkişaf etdirilməsi yolları kimi müxtəlif texnologiyalar çıxış edir ki, bunlara: müəllimin motivasiyayaradıcı səriştəliliyinin yaranmasına xidmət edən əməkdaşlıq texnologiyası, özünüidarə texnologiyası, diskussiya, qrupda kollektiv öyrətmə texnologiyalarını; müəllimin koqnitiv

səriştəliliyinin formalaşmasına xidmət edən layihə işlərini; müəllimin diaqnostk səriştəliliyinin formalaşmasına xidmət edən xarici dil dərsinin analizi, dərsdənkənar fəaliyyətin analizi, dil öyrənənlərin şifahi nitq bacarıqlarının yoxlanmasının obyektiv qiymətləndirilməsini təmin edən texnologiyaları; müəllimin layihələndirici səriştəliliyinin formalaşmasına xidmət edən texnologiyalar kimi layihə işlərini; müəllimin təşkilatlandırıcı səriştəliliyinin formalaşmasına xidmət edən texnologiyaları; müəllimin kommunikativ səriştəliliyinin formalaşdırılmasına xidmət edən texnologiyaları; müəllimin kreativ səriştəliliyinin formalaşmasına xidmət edən texnologiyalar kimi beyin həmləsi, layihə işləri, rollu oyunlar, qrup diskussiyaları texnologiyaları aid edilir.

*Dissertasiyanın aprobasiyası.* Dissertasiya işinin əsas müddəaları və nəticələri Bakı müəllimlərin ixtisasartırma və yenidən hazırlanma İnstitutunda "İnnovasiya, Təhsilin keyfiyyəti və İnkişafı"adlı 2-ci beynəlxalq elmi konfransda, "Xarici dillərin tədrisində yeni tendensiyalar: real təcrübə və inkişaf strategiyaları"adlı konfransda, İngiltərənin Liverpul şəhərində İATEFL (ingilis dilini xarici dil kimi tədris edən müəllimlərin beynəlxalq assosiasiyası) 47-ci konfransında, Türkiyədə "Language in Focus" konfransına təqdim olunmuş məruzələrdə öz əksini tapmış, konfransların materiallarından ibarət toplularda, eləcə də respublikada və xarici ölkələrdə nəşr olunan elmi məcmuə və jurnallarda çap olunmuşdur.

*Dissertasiyanın quruluşu.* Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın *Giriş* hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, onun məqsəd və vəzifələri, müdafiəyə təqdim edilən əsas müddəaları, işin nəzəri və təcrübi əhəmiyyəti, elmi yeniliyi müəyyənləşdirilir, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin "İngilis dili müəllimlərinin peşə bacarıqlarının artırılmasına dair mövcud olan elmi nəzəriyyələrin tədqiqi" adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir.

Təqdim olunmuş birinci fəslin "Xarici dil müəlliminin peşəkar bacarıqlarına müasir yanaşma" adlanan birinci yarımfəslində qeyd olunur ki, peşəkar ustalıq müəllimin peşəkar bilik və təcrübəsinin, yaradıcı və şəxsi keyfiyyətlərinin vəhdətidir. Müəllimlərin davamlı peşəkar inkişafı ilə

bağlı bir çox alimlərlə yanaşı David Heyes[1] innovasiya və davamlı peşəkar inkişaf anlayışlarının nə demək olduğu ilə maraqlanmışdır. Onun sözlərinə görə, Cambridge online lüğətində[2] innovasiya "yeni ideya və ya metod" kimi, Oksford lüğətində[3] isə innovasiya "mövcud olanda yeni metodlar, ideyalar və ya məhsullar yaratmaq yolu ilə dəyişikliklər etmək" kimi müəyyən edilmişdir. Heyes innovasiyanın əsası kimi dəyişikliyi göstərmişdir. O qeyd edir ki, kiçik ölçülü, davamlı dəyişikliklər də innovativ ola bilər. Heyese görə,

" Yaxşı resursları, yaxşı təlim keşmiş müəllimləri və 20-30 şagirdi olan tədris müəssisələrində innovativlik, aşağı səviyyədə resursları, adekvat təlim keçməmiş müəllimləri və 50-60 şagird olan siniflərdəki innovativlikdən fərqlidir. Birinci halda innovasiya interaktiv lövhələrin, Kontent və Dil İnteqrasiyalı Öyrənmə kimi yeni metodologiyanın tətbiqi, o biri halda isə tamamilə müəllimə istinad edilən təlim şəraitində cütlərlə və gruplarla iş növlərinin tətbiqi nəzərdə tutulur. Hər halda, dəyişiklik nə olursa olsun, innovasiya müəllimlər üçün öyrətməyi öyrənmənin müəyyən aspektlərinə yanaşmanın yeni yollarını və bu spesifik konteksdə oyrənənlər üçün yeniləşmiş nəticələrin imkanlarını təklif edəcəkdir."[4]

Peşəkar ustalıq müəllimin peşəkar bilik və təcrübəsinin, yaradıcı və şəxsi keyfiyyətlərinin vəhdətidir. Başqa sözlə desək, xarici dil müəllimi tədris etdiyi fənni və xarici dil öyrətmə prosesində öyrənənlərdə beynəlxalq mədəniyyətlərarası əlaqələrdə tam iştirak etməyi bacaran hərtərəfli mədəni şəxsiyyətin xüsusiyyətlərini formalaşdırmaqda müsbət nəticələrə nail olmaq üçün pedaqoji prosesi necə qurmağı bilməlidir.

Beynəlxalq səviyyədə müəllimlərin peşə bacarıqlarına həsr olunmuş əsərlərin müəlliflərindən Saymon Borq müəllimin idrak fəaliyyəti və müəllimlərin fəaliyyəti ilə onun əlaqəsinin təbiəti haqqıda bir sıra araşdırmalar aparmışdır. Saymon Borq bu araşdırmaları aşağıdakı kimi ümumiləşdirir: "Müəllimlərin anlaması onların özlərinin öyrənən bir şəxs

---

[1] David Hayes Overview-Innovations in continuing professional development: sector-wide, institutional and personal perspectives. Innovations series. British Council, 2014 (315p.), p.5-16

[2] (http://dictionary.cambridge.org/)

[3] (www. Oxforddictionaries.com)

[4] David Hayes Overview-Innovations in continuing professional development: sector-wide, institutional and personal perspectives. Innovations series. British Council, 2014 (315p.), p.5-16

kimi təcrübələrinin çox güclü təsirinə məruz qala bilər; bu tipli anlama müəllimlərin müəllim təhsili aldığı zaman nəyi və necə öyrəndiklərinə təsir edə bilər;onlar çox dərin kök salmış və dəyişməyə müqavimətli ola bilər; onlar müəllimlərin təlimatlandırıcı təcrübələrinə uzunmüddətli və davamlı təsir göstərə bilər; onlar eyni zamanda müəllimin sinifdəki davranışında həmişə əks olunmur; onlar təcrübə artdıqca hər iki istiqamətdə əlaqəyə keçir (yəni inamlar təcrübələrə təsir edir, lakin təcrübələr də, öz növbəsində inamlardakı dəyişikliklərlə idarə oluna bilir).”[1]

Dissertasiya işinin birinci fəslinin ikinci yarımfəsli “Öyrətmənin nəticələrinin keyfiyyətinin qiymətləndirilməsi sahəsində xarici dil müəlliminin səriştələrinin müasir innovasiyalar baxımından formalaşdırılması problemləri” adlanır. Aparılan tədqiqat nəticəsində belə məlum olur ki, linqvodidaktik səriştə xarici dil mütəxəssisinin peşəkar kompetentliyinin əsasını təşkil edən mühüm tərkib hissələrindəndir. Bu kompetensiya şəxsiyyətin inteqrativ xarakteristikası olaraq xarici dil fəaliyyətinin öyrədən və öyrənənin qarşılıqlı münasibətlərinin mürəkkəb sistemində xarici dil biliklərinin ötürülməsi və alınmasına əsaslanan mühüm və vacib kompetensiyalar kompleksinin formalaşmasına yönəlmişdir.

Bu sahədə xarici və yerli alimlər xarici dil müəlliminin aşağıdakı linqvodidaktik bacarıqlarını qeyd edirlər: qnostik linqvometodik bacarıqlar; konstruktiv bacarıqlar; təşkiledici linqvometodik bacarıqlar; kommunikativ öyrədici bacarıqlar; tərbiyəedici funksiyanın həyata keçirilməsi üçün linqvometodik bacarıqlar.

Bu bacarıqların əsası linqvistik və metodiki biliklərin sintezindən yaranmışdır və bu bacarıqlar kommunikativ nitq əsasında pedaqoji funksiyaların həyata keçməsini və xarici dili öyrənənlərlə ünsiyyətin məqsədi və vasitəsi kimi istifadəsini nəzərdə tutur.

Bu elmi axtarışın məqsədi xarici dil müəllimlərinin peşə bacarıqlarının dil öyrənənlərin şifahi nitq qabiliyyətlərinin yoxlanması əsasında formalaşdırılmasıdır. Bu baxımdan linqvodidaktik səriştənin xüsusilə qeyd olunmasına ehtiyac duyulur.

Linqvodidaktik səriştə şəxsiyyətin inteqrativ xüsusiyyətidir və özündə aşağıdakı komponentləri birləşdirir: motivasiyayaradıcı kompetensiya;koqnitiv kompetensiya; diaqnostik kompetensiya; layihələndirici kompetensiya; kommunikativ kompetensiya; təşkiltçılıq

[1] Borg Simon.Introducing language teacher cognition. Retrieved25.07.16 from http: /www.education.leeds.ac.uk./research files/2009,145pdf

kompetensiyası; yaradıcılıq kompetensiyası; refleksiv kompetensiya.

Bu baxımdan aparılan tədqiqat nəticəsində belə məlum olur ki, linqvodidaktik kompetensiya xarici dil mütəxəssisinin peşəkar kompetentliyinin əsasını təşkil edən mühüm tərkib hissələrindəndir. Öz strukturuna görə o bir sıra kompetensiyalardan ibarətdir olub, motivasiyaedici, koqnitiv, kommunikativ, layihələndirici, təşkilatçılıq, diaqnostik, refleksiv və kreativ kompetensiyaları onların əsasını əhatə edir.

Dissertasiya işinin birinci fəslinin "Xarici dil tədrisinin müasir metodikasında şifahi nitq qabiliyyətlərinin qiymətləndirmə obyekti kimi xüsusiyyətləri" adlı üçüncü yarımfəslində qeyd olunur ki, linqvistik və interaktiv səriştəlilik öyrənənin nitq qarşılaşmasında müəyyən kommunikativ məsələləri həll etmək üçün iştirak etmək qabiliyyətidir. Beləliklə, qiymətləndirmə obyekti qismində dil öyrənənin şifahi nitq qarşılaşmasında iştirak etmək bacarığı və müəyyən kommunikativ məsələləri həll etmək qabiliyyəti çıxış edir. Öyrənənlərin şifahi nitq qabiliyyətlərinin mövcud qiymətləndirmə vasitələri fonunda test üsulundan istifadə getdikcə daha çox yer tutur. Bu sahədə elmi axtarışlar aparmış alimlərdən D.Ə. İsmayılova qeyd edir ki, dil öyrənənləri düzgün qiymətləndirmək üçün ilk öncə onların test icra etmək və linqvistik bacarıqlarını inkişaf etdirmək vacibdir.[1]Beləliklə, müəllif qeyd edir ki, dil qiymətləndirilməsi və dil testinin keçirilməsi məfhumlarını müəyyənləşdirərkən onların xarici dil tədrisi metodikasında işlənmə sahələrini müəyyən etmək olar.

Tədqiqatın "Öyrənənlərin şifahi nitq qabiliyyətlərinin qiymətləndirilməsi əsasında öyrədənlərin professional bacarıqlarının formalaşdırılmasının təcrübi yolları" adlanan ikinci fəsli dörd yarimfəsildən ibarətdir. İkinci fəslin birinci yarımfəsli "Öyrənənlərin şifahi nitq qabiliyyətlərinin qiymətləndirilməsi əsasında öyrədənlərin professional bacarıqlarının tədris proqramı" adlanır. Müasir dövrdə qrammatikaya əsaslanan proqlamlar bacarıq, tapşırıq və başqa qeyri qrammatik təşkilatı bölmələr üzərində qurulmuş kommunikativ proqramlarla əvəz olunmuşdur. Sərbəst danışıq xarici dil tədrisinin məqsədinə çevrilmişdir və burada informasiya boşluğu tapşırıqlar vasitəsi doldurulması dil öyrənənlərin qrammatikanın öyrədilməsi çərçivəsindən çıxaraq, real kommunikasiyayacəlb olunması təmin olunur. Beləliklə, dərsdə kommunikasiya strateqiyaları yaradılır və öyrənənlər mənalı danışmalara

[1] Dilara A. İsmailova. Teaching English as a Foreign Language. Textbook. Baku: Mütərcim, 2011: pp. 313-315

can atır. Bunların hər ikisi şifahi nitq qabiliyyətinin yaradılması üçün vacibdir. Dinləmə proseslərinin təbiətini anlamaq üçün danışıq diskursunun xarakteristikaları və onun dinləyicilər üçün yaratdığı problemlər nəzərə alınmalıdır.

İkinci fəslin ikinci yarımfəsli "Öyrənənlərin qiymətlədirilməsi kompetensiyalarının komponentləri" adlanır. Bu fəsildə qeyd olunur ki, Azərbaycanda təhsil sahəsində baş verən yeniliklər öyrənənlərin biliklərinin qiymətləndirilməsində daha obyektiv meyarlardan istifadə etmək bacarıqlarına malik müəllimlərin formalaşdırılması vacibliyini ortaya qoyur. Orta məktəblərin yuxarı siniflərində(X-Xİ) öyrənənlərin bilikləri adətən gündəlik şifahi sorğu, test işləri, layihə işləri əsasında aparılır (kurikulum[1]) .

Universitetlərdə isə öyrənənlərin, konkret olaraq, 1-ci və 2-ci kurs tələbələrinin xarici dil biliklərinin qiymətləndirilməsi əsasən aşağıdakılara əsasən aparılır: gundəlik şifahi sorğu; yazı işləri; kollokviumlar; sərbəst işlər; imtahan.

Gündəlik şifahi sorğu tələbələrin cütlük və qruplarda iştirakını, mətnlər üzərində işlərini nəzərdə tutur. Qiymətin obyektiv olması üçün müəllim, yəni öyrədən xüsusi rubrikdən istifadə etməli və bu rubriklə öyrənənləri də əvvəlcədən tanış etməlidir. Rubriklər öyrənənlərə gözlənilən öyrənmə məqsədlərini qarşılamaq üçün ətraflı təsvir edilmiş kriteriyalar təklif edir və qiymətləndirmənin daha dəqiq və effektiv olmasına xidmət edir.

Yazı işləri də tələbələrin, yəni öyrənənlərin biliyinin qiymətləndirilməsi üçün bir vasitədir. Yazı işləri əsasən müxtəlif növ esselərdən ibarətdir ki, bunlar da təsviredici, analitik (mövcud olana aid fikir bildirmək), nağıl etmə (hər hansı bir hadisənin nəqli) və inandırıcı esse növləridir ki, bunların qiymətləndirilməsi də xüsusi rubriklər əsasında aparılır.

Öyrənənlərin biliyinin qiymətləndirilməsində vacib vasitələrdən biri kimi kollokviumlardan istifadə edilir. Kollokviumların tərtib edilməsi üçün dəqiq mexanizmlərin işlənib hazırlanması önəmlidir.

Sərbəst işlərə gəldikdə, onlar tələbənin, yəni öyrənənin yaradıcılıq işi kimi qiymətləndirilir. Sərbəst işlər müəyyən mövzu üzrə analitik yazılar, kiçik tədqiqat işləri və ya təqdimatlar şəklində ola bilər. Bu işlərin hər birinin formatı ilə tələbə qabaqcadan tanış edilməlidir.

---

[1]"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmişdir

İmtahanlar hər bir tələbənin, yəni öyrənənin biliyinin rəsmi qiymətləndirilməsidir və öyrənənlərin fəaliyyətinin ümumi qiymətləndirilməsində əsas yer tutur. İmtahan sorğu vərəqəsi əsasən leksik və grammatik tapşırıqlar, oxuyub anlama və mövzu üzrə fikrini ifadə etmək bacarığını əhatə edən tapşırıqlardan ibarətdir.

Yalnız bəzi hallarda (məsələn, Sabah qruplarında) dinləmə və danışıq bacarıqları da yoxlanır və qiymətləndirilir. Yazılı tapşırıqların və şifahi nitq bacarıqlarının qiymətləndirilməsi fərqli meyarlar əsasında aparılır. Şifahi nitqin qiymətləndirilməsi isə əsasən subyektiv meyarlar əsasında aparılır və bu zaman qiymətləndirənin subyektiv münasibəti ortaya çıxa bilər.

Hər bir qiymətləndirmə öyrənənin fəaliyyətində həm də stimullaşdırmaya müsbət və yaxud mənfi təsir edəcək bir faktordur. Qiymətləndirmə həm öyrənənin, həm də öyrədənin lazımı kompetensiyalara yiyələnməsinin vacibliyini aşkara çıxarır. Belə ki, tələbənin, yəni öyrənənin biliyinin qiymətləndirilməsi üçün meyarların təyin edilməsi, sistemləşdirilərək rubrik halına salınması müəllimlərdən-öyrədənlərdən xüsusi kompetensiyaların yaradılması önəmlidir.

İkinci fəslin üçüncü yarımfəsli "İngilis dilinin tədrisində müasir metodlardan istifadə yolları" adlanır. Ölkəmizdə İngilis dili orta məktəblərdə ilk siniflərdən başlanır, daha sonra isə universitetlərdə ümumi ixtisas proqramının bir hissəsi kimi tədris olunur. Bu uzunmüddətli tədrisin sonunda dil öyrənənlərin az bir qismi sərbəst nitq qabiliyyətlərinə yiyələnərək, ünsiyyət qura bilir. Bunun səbəblərindən biri qəbul imtahanlarında istifadə olunan test sistemidir ki, bu da əsasən yalnız oxu və yazı qabiliyyətlərinə əsaslanır. Bu zaman dinləmə və danışma kimi vacib qabiliyyətlər diqqətdən kənarda qalır. Dünya təcrübəsində istifadə olunan qiymətlədirmə metodlarından üçündən tədqiqatımızda istifadə olunmuşdur.

. "Eksperimental təlimin təşkili, aparılması və nəticələri" adlanan dördüncü yarımfəsildə üç mərhələdən ibarət olan eksperimental təlimin təsviri verilmişdir. Tədqiqat 2012-2017-ci illəri əhatə etmişdir.

Tədqiqatın birinci – axtarış mərhələsi ərzində (2012-2013-ci illər) tədqiqat problemi müəyyən edilmiş; mövzu üzrə pedaqoji, psixoloji və metodiki ədəbiyyatın analizi və seçilməsi həyata keçirilmiş; tədqiqatın məqsəd və vəzifələri formalaşdırılmış; tədqiqatın obyekt və predmeti müəyyən edilmiş; tədqiqatın fərziyyəsi irəli sürülmüş; tədqiqatın metodları müəyyən edilmişdir.

Tədqiqatın ikinci – təcrübi-eksperimental mərhələsi ərzində (2013-2016-ci illər) onun fərziyyəsi dəqiqləşdirilmiş və yoxlanmadan keçirilmiş;

öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının artırılması yolları müəyyən edilmiş; orta məktəblərin yuxarı sinif şagirdlərinin və universitetlərin aşağı kurs tələbələrinin şifahi nitq bacarılarının qiymətləndirilməsinin obyektivliyinin təmin edilməsinin mərhələli texnologiyası hazırlanmış; öyrənənlərin linqvistik və interaktiv səriştəliliyinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının formalaşdırılması üçün tədris proqramı hazırlanmış; tədqiqatın işçi fərziyyəsinin yoxlanması məqsədilə eksperimentin planı hazırlanmış; eksperimental tədqiqat müddətində pedaqoji təhsil bakalavrları və müəllimlərin peşəkar inkişaf kursları üçün hazırlanmış tədris proqramının effektivliyi yoxlanmışdır.

Tədqiqatın üçüncü yekun mərhələsində (2016-2017-ci illər) eksperimental tədqiqatın nəticələrinin analizi aparılmış, onun kəmiyyət və keyfiyyət göstəriciləri təsvir edilmişdir və əsas nəticələr ifadə edilmişdir.

Müəyyənedici eksperiment mərhələli şəkildə həyata keçirilmişdir. Eksperimentin birinci mərhələsində 40 xarici dil müəllimi iştirak etmişdir. Eksperimentə cəlb olunmuş müəllimlər kontrol və eksperimental qruplara bölünmüşdür. 1 qrup (20 müəllim) kontrol qrupları, digər 1 qrup (20 müəllim) isə eksperiment qrupları kimi müəyyən olunmuşdur. Tədqiqatda iştirak edəcək müəllim qrupları həm Bakı şəhərinin orta ümutəhsil məktəblərindən, həm regionlarda mövcud olan məktəblərdən, həm də universitet müəllimləri arasından seçilmişdir.

Müəyyənedici eksperimentə cəlb olunmuş öyrənənlərin linqvistik və interaktiv səriştələrinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin professional bacarıqlarının artırılması səviyyəsinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün aşağıdakı göstəricilər təyin edilmişdir: 1) kəmiyyət göstəricisi; 2) keyfiyyət göstəricisi.

Birinci mərhələdə ilkin fəaliyyət kimi sorğu vərəqələri tərtib edilmişdir.

*Tədqiqat-eksperimental işin məqsədi* öyrənənlərin linqvistik və interaktiv səriştələrinin qiymətləndirilməsi əsasında xarici dil müəllimlərinin professional bacarıqlarının formalaşmasına xidmət edən metodiki sistemin tətbiqinin effektivliyinin analizi və yoxlanmasıdır. Bu məqsədlə tədqiqat-eksperimantal işin diaqnostik mərhələdə məqsədləri və vəzifələri müəyyən edilmişdir. Müəyyənedici eksperiment kimi bu mərhələlərin vaxtında aparılması üçün müxtəlif anket sorğuları keçirilmiş və fərqlər təhlil edilmişdir.

Kontrol qrupunda olan müəllimlərin 9(45%) nəfəri yeni təlim metodlarını dərslərində tətbiq etmək üçün dərs planlarında çox vaxt ayıra bilirlər, 8(40%) nəfəri çox az hallarda vaxt ayıra bilirlər, 3(15%) nəfəri heç vaxt ayıra bilmir. Eksperiment qrupuna daxil olan müəllimlərin 7(35%) nəfəri yeni təlim metodlarını dərslərində tətbiq etmək üçün dərs planlarında çox vaxt ayıra bilir, 9(45%) nəfəri çox az hallarda vaxt ayıra bilir və 4(20%) nəfəri isə heç vaxt ayıra bilmirlər. Bu da öz növbəsində öyrənənlərin kommunikativ bacarıqlarının qiymətləndirilməsi sahəsində lazımi kompetensiyalara yiyələnmə səviyyəsinin aşağı olmasından irəli gəlir.

Müəyyənedici eksperiment nəticəsində əldə olunan nəticələr belə deməyə əsas verir ki, xarici dil müəllimlərinin əksəriyyəti yeni təlim metodlarından xəbərdardır, lakin onları dərslərində tətbiq etməkdə müəyyən çətinliklərlə üzləşirlər ki, bu da öyrənənlərin şifahi nitq bacarıqlarının düzgün qiymətləndirilməməsinə gətirib çıxarır.

Öyrədici eksperiment müddətində eksperimentə cəlb edilmiş müəllimlərin (istər eksperimental, istərsə də kontrol qruplarda) bərabər səviyyədə olması təmin edilmişdir.

Öyrədici eksperimentin aparılması zamanı istifadə edilən təlim materialları müəyyənedici eksperimentin nəticəsində müəyyən edilmiş və müəllimlərin daha çox ehtiyacı olan sahələri inkişaf etdirmək üçün tərtib edilmişdir.

Qeyd olunmalıdır ki, eksperimentin həyata keçirildiyi dövrdə, yəni müəyyənedici, öyrədici və yekunlaşdırıcı mərhələlərdə öyrənənlərin linqvistik və interaktiv səriştələrinin yoxlanması əsasında xarici dil müəllimlərinin peşə bacarıqlarının inkişafı diaqnostikası ardıcıl olaraq həyata keçirilmiş və nəticələr müqayisə edilərək, elmi müddəanın effektivliyi yoxlanmışdır.

**Cədvəl**

| Sual | Eksperimentdə iştirak edən qruplar | Çox vaxt | | Çox az hallarda | | Heç vaxt ayıra bilmirəm | |
|---|---|---|---|---|---|---|---|
| “Yeni təlim metodlarını dərslərinizdə tətbiq etmək üçün dərs planınızda kifayət qədər vaxt ayıra bilirsinizmi?“ | KQ | Eksper. əvvəl | Eksper. sonra | Eksper. əvvəl | Eksper. sonra | Eksper. əvvəl | Eksper. sonra |
| | | 9(45%) | 9(45%) | 8(40%) | 8(40%) | 3(15%) | 3(15%) |
| | EQ | Eksper. əvvəl | Eksper. sonra | Eksper. əvvəl | Eksper. sonra | Eksper. əvvəl | Eksper. sonra |
| | | 7(35%) | 12(60%) | 9(45%) | 6(30%) | 3(15%) | 2(10%) |

Cədvəldə təqdim edilmiş nəticələr öyrədici mərhələdən sonra eksperiment və kontrol qruplarında müəllimlərin anket sorğularında əks olunmuş fərq onların professional bacarıqlarında baş vermiş inkişafı əks etdirir.

Dissertasiya işinin *Nəticə* hissəsində aparılan tədqiqatın əsas elmi müddəaları və gəlinən qənaətlər aşağıdakı kimi ümumiləşdirilir:

1. Xarici dil müəllimlərinin öyrənənlərin linqvistik və interaktiv səriştələrinin qiymətləndirilməsi üçün lazım olan peşə bacarıqlarının səviyyəsi dövrün tələblərinə cavab vermir. Aparılmış dissertasiya tədqiqatı professional-pedaqoji hazırlığın instrumenti kimi beynəlxalq keyfiyyət standartlarına istinad edərək, xarici dil müəllimlərinin hazırlanması keyfiyyətinin idarə edilməsi sisteminin qurulması və istifadə edilməsinin mümkünlüyünü və vacibliyini göstərir. Müəllim hazırlığında öyrənənlərin nitq qabiliyyətlərinin inkişafına xidmət edən xüsusi kompetensiyaların formalaşdırılmasının keyfiyyətinə nəzarət sistemli həyata keçirilməlidir, belə ki, xarici dil müəllimləri hazırlayan universitetlərdə tədris-metodiki və pedaqoji təcrübə dövründə bu kompetensiyaların formalaşdırılması sistemi olmalıdır.

2. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, müəllim hazırlığının keyfiyyətinin idarə edilməsinin effektivliyinin artırılması aşağıdakı təşkilatı-metodiki şərait ilə təmin edilir: tələb olunan keyfiyyət səviyyəsini əldə etmək, müəllimlərin diaqnostik fəaliyyətə hazırlığının monitorinqinin metodiki təminatı üçün bütün prosesləri qeydə alan «Öyrənmə nəticələrinin qiymətləndirilməsinin müasir vasitələri» kursunun yaradılması, öyrənənlərin nitq qabiliyyətlərinin inkişafı keyfiyyətini qiymətləndirmək üçün diaqnostik materiallar kompleksinin yaradılması, keyfiyyətin artırılmasına gətirib çıxaran texnologiyaların axtarışı və tətbiqi üçün diaqnostik fəaliyyətin genişləndirilməsi.

3. Öyrənənlərin nitq qabiliyyətinin inkişafının effektivliyini yoxlamaq üçün müəllimin həyata keçirdiyi kontrol və özünükontrolun keyfiyyətinə təsir edən faktorlar sistemi müəyyən edilmişdir.

4. Kontrol və özünükontrolun aşağıdakılardan ibarət olan ən effektiv üsul, forma və texnologiyaları müəyyən edilmişdir.

5. Dil fakültələri tələbələrinin ixtisas dilində yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə autentik materiallara daha geniş yol verilmişdir.

6. Öyrənənlərin nitq bacarıqlarının inkişafı keyfiyyətinin yoxlanması sahəsində xarici dil müəllimlərinin kompetensiyalarının formalaşdırılması metodikasının hazırlanması problemlərinin konseptual müddəaları nəzəri cəhətdən əsaslanmış, formulə edilmiş və bir hissəsi sınaqdan keçirilmişdir.

Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır.

1. How to Meet the Trainees' Expectations / Innovasiya, Təhsilin keyfiyyəti və İnkişaf, II Beynəlxalq Elmi Konfransın Materialları (7-8 İyun 2012) , s.221-223
2. New Tendencies in Teacher Training / Xarici Dillərin Tədrisinin Aktual Problemləri, V Respublika Elmi-Praktik Konfransının Materialları (7-9 İyun 2012), s.160-161
3. New Trends in Teacher Development / Xarici Dillərin Tədrisində Yeni Tendensiyalar. Mövcud Təcrübə və İnkişaf Strategiyaları, Beynəlxalq Elmi-Praktik Konfransın Materialları(30-31 Oktyabr 2013), s.157-162
4. The Improvement of Teacher Cognition on the Systematic Assessment of EFL Learners' Communicative Competencies / Xarici Dillərin Tədrisinin Aktual Problemləri, Beynəlxalq Elmi-Praktik Konfransın Materialları (6-7 May 2013), s. 237-238
5. Virtual Learning and Professional Development of Teachers / "Postmodern Dövrdə Milli Özünüidarə" Beynəlxalq Humanitar Forum çərçivəsində Konfrans (Oktyabr- 1Noyabr2013), s.108 – 112
6. The Role of Motivational Strategies in Foreign Language Teaching / "XXİ Əsr Mədəni Paradiqması Multimədəni Aspektdə" Respublika Elmi-Praktik Konfransı (25-26 Noyabr 2014), s. 200-201
7. Öyrənənlərin Qiymətləndirilməsi Kompetensiyalarının Kompetentləri / Xarici Dillərin Tədrisinin Aktual Problemləri. Respublika Elmi-Praktiki Konfransının Materialları (5-6 May 2016), s. 264-268
8. Öyrənənlərin qiymətləndirilməsinin xarici dil müəllimlərinin peşəkarlıq səriştələrindən asılılığı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Elmi məqalələr məcmuəsi, 2017, №3, s. 240-242
9. Xarici dil müəllimlərinin peşəkarlıq səviyyəsini müəyyən edən mühüm kompetensiya vı bacarıqlara qısa baxış // ADU-nun Elmi xəbərləri , 2017, cild 2,№ 3, s. 224-227
10. Teacher Developmet in Language Teaching // Tbilisi (Georgia), "İntercultural Communications" İnternational Scientific periodical edition, 2017, № 29, p-s 3-8
11. Xarici dil müəllimlərinin linqvodidaktik kompetensiyalarına dair // Dil və ədəbiyyat , 2017, cild 8, № 3, s. 228-233
12. Xarici dillərin tədrisində öyrənənlrin biliklərinin qiymətləndirilməsi problemləri // Bakı Slavyan Universitetinin Elmi əsərləri (ictimai-siyasi elmlər seriyası), 2017, № 1, s. 122-127

13. Повышение профессионального мастерства учителей английского языка как средство оценки уровня эффективности процесса обучения // Вестник КазНПУ им.Абая, Серия «Педагогические науки», 2018 г., №1(57), с. 178-182

Гюльшан Агабаба гызы Самадова

# ПУТИ РАЗВИТИЯ ПРОФЕССИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ УЧИТЕЛЕЙ ИНОСТРАННОГО ЯЗЫКА НА ОСНОВЕ КОНТРОЛЯ ЛИНГВИСТИЧЕСКИХ И ИНТЕРАКТИВНЫХ УМЕНИЙ ОБУЧАЕМЫХ

## Резюме

Диссертация состоит из введения, двух глав, заключения, приложения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы и научная новизна работы, определяется её теоретическая и практическая значимость, возможность использования результатов работы в процессе подготовки специалистов в области английского языка; определяются объект и предмет исследования; цели и задачи, фактический материал диссертации и методика его исследования; положения, выносимые на защиту.

В первой главе под названием “Изучение существующих научных теорий по развитию профессиональных навыков учителей английского языка” проводится анализ методической и педагогической литературы, как в Азербайджане, так и за рубежом, рассматриваются основные компоненты, включающие ряд ключевых компетенций, составляющих профессиональную компетентность учителя английского языка.

Во второй главе, под названием “Практические пути формирования профессиональных навыков учителей на основе контроля умений устной речи обучаемых”, рассматриваются аспекты оценки тестирования устных речевых умений обучащихся в методике обучения иностранным языкам. В этой связи отмечается, что исходя из компонентного состава иноязычной коммуникативной компетенции как результата сформированности устных речевых умений, в качестве объекта оценивания последних выступают не только языковая / речевая компетенция в широком смысле слова, но также дискурсивная и социолингвистическая компетенции.

В заключении диссертации даются выводы, сформулированные

в результате проведенного исследования.

Gulshan Agababa Samadova

# THE WAYS OF DEVELOPING PROFESSIONAL COMPETENCY OF FOREIGN LANGUAGE TEACHERS ON THE ASSESMENT OF LINQUISTIC AND INTERACTIONAL SKILLS OF THE LEARNERS

## Summary

The dissertation consists of an introduction, two chapters, conclusion and the list of used literature.

The introduction includes the background of the problem, the scientific novelty of the work, its theoretical and practical significance, the purpose of study, the results of the research work, resources and methods of the research work, specifies the structure of the dissertation and provisions for the defense.

The first chapter of the research work entitled "The study of the present scientific theories on the professional development of foreign language teachers" deals with the analysis of methodological and pedagogical literature in Azerbaijan as well as in the world, lists the main components, including a number of basic competencies, which form the professional competency of the English language teacher.

The second chapter of the research work entitled "Practical ways of improvement of the professional competence of foreign language teachers on the assessment of the learners' linguistic and interactive skills" determines the aspects of assessment of the linquistic and interactive skills of the learners in foreign language teaching methodology. In this context it is highlighted that considering the componental structure of the foreign language teaching as a result of formation of oral language skills the object of assessment is not only language/speech competency in its broad meaning, but also discoursive and sociolinguistic competencies.

The basic results of the research work are summarized in the conclusion.

Çapa imzalanıb: 23.05.2018
Format: 60x84 1/16. Tiraj: 100.

---

"Mütərcim" Nəşriyyat Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ГЮЛЬШАН АГАБАБА гызы САМАДОВА

# ПУТИ РАЗВИТИЯ ПРОФЕССИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ УЧИТЕЛЕЙ ИНОСТРАННОГО ЯЗЫКА НА ОСНОВЕ КОНТРОЛЯ ЛИНГВИСТИЧЕСКИХ И ИНТЕРАКТИВНЫХ УМЕНИЙ ОБУЧАЕМЫХ

5801.01 – Теория и методика обучения и воспитания
(методика преподавания английского языка)

А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по педагогике**

Баку – 2018